Horadiz əməliyyatı: 31 il əvvəl qazanılan qələbə

Qarabağın başı üzərində qara buludlar günü-gündən daha da sıxlaşır, Ermənistan silahlı qüvvələrinin hücumları ara vermir, şəhərlər, kəndlər bir-birinin ardınca işğala məruz qalır, azərbaycanlılar öz dədə-baba yurdlarından didərgin salınır, müharibənin boz sifəti hər tərəfdə hiss olunurdu. Ermənilər öz havadarlarının köməyi ilə 1993-cü ilin avqust ayında Füzuli şəhərini işğal edəndən sonra Horadiz qəsəbəsinə və Arazqırağı kəndlərə daxil oldular. Cəbhədə hərbi məğlubiyyətlərimiz davam edirdi. Müharibənin ağır nəfəsi artıq Muğan çöllərində hiss olunurdu. Xalqımız çox çətin, ziddiyyətli, ağır və fəlakətli bir vəziyyətlə üz-üzə qalmışdı.

Yenicə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev daxili çəkişmələrin, dövlət çevrilişlərinə cəhdin, cəbhədəki uğursuzluqların qarşısını böyük siyasi təcrübəsi hesabına ala bildi. Xalq bu dahi insandan imdad gözləyir və ona inanırdı. Ulu öndər xalqımızı bütün bəlalardan xilas etdi, cəbhədə erməni hücumlarının qarşısı alındı, insanların qəlbində inam və ümid baş qaldırdı.

1993-cü il dekabr ayının əvvəllərində Heydər Əliyevin bölgəyə səfəri, cəbhə xəttindəki hərbçilərlə və yerli əhali ilə görüşləri heç də təsadüfi xarakter daşımırdı. Vəziyyət çox ağır idi, qısa vaxt ərzində ulu öndər 2 dəfə Beyləqan rayonunda oldu, cəbhə xəttində əsgərlərlə, komandirlərlə söhbət etdi. Yaranmış hərbi vəziyyət, ondan çıxış yolları geniş təhlil olundu, qarşıya konkret vəzifələr qoyuldu. Tarixçilərin də, sosioloqların da, hərbçilərin də etiraf etdikləri bir həqiqət var. Horadiz əməliyyatı Azərbaycan Respublikasının Prezidenti, ulu öndər Heydər Əliyevin Ermənistan silahlı qüvvələrinin ölkəmizin ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı televiziya və radio ilə 2 noyabr 1993-cü il tarixli müraciətinin bilavasitə nəticəsi idi. Həmin vaxt düşmən qüvvələri Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan, Füzuli rayonunun böyük bir hissəsini işğal edəndən sonra onların hücumları ara vermirdi. Artıq döyüşlər Beyləqanın 8-10 kilometrində aparılırdı.

Şəhər bir neçə dəfə "Qrad" qurğularından güclü atəşə tutulmuş, ictimai və yaşayış binaları dağıdılmış, ölənlər və yaralananlar olmuşdu. Nəticədə bölgədə ağır vəziyyət yaranmışdı. Qeyd edək ki, əslində Azərbaycan milli ordusu yeni yaranırdı. Ancaq sonradan bütün çılpaqlığı ilə məlum oldu ki, bu, ordu deyil, ayrı-ayrı siyasi partiyalara və təşkilatlara, hətta müxtəlif adamlara xidmət edən silahlı dəstələr idi. Belə ordu ilə müharibə aparmaq, düşmənə qalib gəlmək əsla mümkün deyildi. Ulu öndərin xalqa tarixi müraciətində deyilirdi: "...İki ildən artıqdır ki, Azərbaycan Respublikası müstəqil bir dövlətdir. Bu iki il müddətində müstəqil dövlətimiz öz ordusunu yaratmalı idi. Bundan ötrü bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi. Lakin bu fürsət əldən verilib və Azərbaycanın müdafiə imkanları get-gedə möhkəmlənmək əvəzinə, zəifləmişdir. Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olmamışdır...".

Məhz 1994-cü il yanvar ayının 4-də milli ordunun hərbi hissələri Füzuli istiqamətində əks-hücum əməliyyatlarına başladılar, düşmənə ağır və sarsıdıcı zərbələr vuruldu, ermənilərin bu istiqamətdə hücumları dayandırıldı. 22 yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu qələbə insanlarda böyük ruh yaratdı. Qeyd edək ki, Horadiz əməliyyatı Azərbaycan ordusunun 1994-cü ildə keçirdiyi ən uğurlu döyüşlərlə başa çatdırılıb. İlk döyüş günündə ermənilərdən qənimət olaraq 3 tank, bir ədəd "Şturm-S", 6 ədəd top, 6 ədəd top qoşqusu, 10-a yaxın nəqliyyat vasitəsi, çoxlu sayda silah-sursat qənimət kimi götürülüb. Həmin döyüşdə düşmən ağır itkilər verərək və əsgərlərinin cəsədlərini döyüş meydanında qoyaraq qaçıb. Yanvarın 6-da polkovnik Şair Ramaldanovun rəhbərlik etdiyi alay Horadiz qəsəbəsinə daxil olub. Horadiz döyüşlərində misilsiz qəhrəmanlıq göstərən 8 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. "Azərbaycan Bayrağı" ordenli, ehtiyatda olan polkovnik Şair Ramaldanov həmin döyüşlər haqqında danışarkən qeyd edib ki, Horadiz əməliyyatı 1994-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi ən uğurlu əməliyyat olub. Biz qoyulan tapşırığı uğurla yerinə yetirdik. Dörd aydan çox müdafiədə oturan düşmənin üzərinə atılaraq torpaqlarımızı azad etdik. Biz tankların üzərində "Heydər Əliyev uğrunda" şüarları ilə döyüşlərə girdik. Horadiz əməliyyatı nəticəsində qısa müddətdə 21 min hektar ərazi, Füzuli rayonunun Arazboyu 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Düşmən ağır itkilər verərək geri çəkildi. Azərbaycan Ordusunun əsgərləri Horadizə daxil olaraq Azərbaycan bayrağını ucaltdılar. Bu uğurlu əməliyyat ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilib. Həmin döyüşlərdə düşmənə güclü zərbə endirdik.

Qeyd edək ki, 1994-cü il yanvarın 4-də Azərbaycan şimal-qərb istiqamətindən çox böyük əks-hücum əməliyyatına başlanıldı. Hərbi analitiklər həmin döyüşləri Qarabağ uğrundakı müharibənin ən qanlı səhifəsi adlandırırlar. Azərbaycanın qəhrəman oğulları ermənilərin Vanadzor diviziyasını tam mühasirəyə salaraq 240 nəfərdən çox düşmən döyüşçüsünü bir gündə məhv etmişlər. Erməni hərbi dəstələri çox ağır itkilər verərək geri çəkilməyə məcbur edilmişlər. Horadizi ermənilərdən azad edən milli ordunun komandirlərindən biri, "qara polkovnik" kimi tanınan mərhum Fətullah Hüseynov tərəfindən endirilərək cırılan qurama erməni bayrağı daha sonra Azərbaycan əsgərləri tərəfindən ayaqqabı silmək üçün adi əski parçasına çevrildi.

Xalqımız ulu öndərin rəhbərliyi ilə qazanılan Horadiz əməliyyatının 31-ci ildönünü qeyd edir. Azərbaycan ordusunun ilk uğuru olan "Horadiz əməliyyatı" nəticəsində qazanılan qələbə, hərbi üstünlük xalqımızda orduya və dövlətə inam, güvən yaratdı, indiki Horadiz şəhəri də daxil olmaqla, 22 yaşayış məntəqəsinin düşməndən azad edilməsi müstəsna əhəmiyyət daşıdı. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən və böyük Zəfərlə bitən Vətən müharibəsi ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamı və təntənəli nəticəsidir. 2020-ci ildə silahlı qüvvələrimizin ilk uğurlu hərbi əməliyyatları da məhz Füzuli rayonundan başlayıb. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib. İşğalçı Ermənistan ərazinin necə böyük əhəmiyyət daşıdığını dərk edərək burada çox güclü istehkamlar qurmuş, bir neçə xətdən ibarət müdafiə xətti yaratmışdı. Eyni zamanda otuz ilə yaxın burada möhkəmlənmişdi. Buna baxmayaraq, bu istehkamları, müdafiə xətlərini yarıb keçmək ordumuzun qəhrəmanlığı və fədakarlığı sayəsində mümkün oldu. Bu istehkamları canı-qanı bahasına dağıdaraq irəliləmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi.

Salman ALIOĞLU,
"Respublika".